## *TARİXİN TƏDRİSİ METODİKASI, TARİX FƏNNİNİN TƏRBİYƏEDİCİ İMKANLARI*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X–XI SİNİFLƏRİNİN AZƏRBAYCAN TARİXİ KURSLARININ TƏDRİSİNDƏ QRUPLARLA İŞİN TƏŞKİLİNİN DİDAKTİK, PSİXOLOJİ VƏ FƏLSƏFİ ƏSASLARI

**Vüsalə Rüstəmova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: Vusale541@gmail.com

**Rəyçilər:** *tarix.ü.fəls.dok.* S. Seyidova,
*ped.ü. elm.dok.* M. Əmirov

***Açar söz:*** *məktəb, təhsil, qrup işi, pedaqoji-psixoloji irs, didaktik məqsəd, fəlsəfi düşüncə*

***Ключевые слова***: *школа, образование, групповая работа, педагогико-психологическое наследие, дидактическая цель, философское мышление*

***Key words:*** *The school, education, work of group, pedagogical and psychological heritage, didactic purpose, philosophical thinking*

Müstəqil Respublikamızın müxtəlif aspektlərdən inkişafında məktəb – müəllim tərəfdaşlığının müstəsna rolu vardır. Belə ki, müasir standartlara cavab verən məktəb, geniş dünyagörüşünə malik müəllim elə əslində intellektual baza deməkdir. Təhsil sahəsindəki tədbirlər gənc nəslə yalnızca savad verməyi amal seçərsə, uğurlu nəticə əldə edə bilməz. Bu sahədə əsas atributlar kimi dərsə didaktik, psixoloji və fəlsəfi aspektlərdən yanaşmağı götürəriksə, məqsədə bir addım da yaxınlaşmış olarıq.

Cəmiyyətimizin inkişafındakı müasir tendensiyalar peşəkar kadrların hazırlanmasına müsbət təsirini göstərir. Bu məqsədə nail olmaq üçün şagirdlərin bilik və fəaliyyətini, həmçinin onlarda kollektiv yaradıcılıqla məşğul olmaq ideyasını inkişaf etdirmək lazımdır ki, buna da fərdiləşdirmə və intensivləşdirmə vasitəsilə nail olmaq mümkündür.

Fəal təlim zamanı ən çox istifadə olunan üsulun məhz qrup işi forması olduğunu nəzərə alsaq, onun didaktik, psixoloji və fəlsəfi əsaslarının ayrı ayrılıqda təhlilə cəlb edilməsi zərurətini anlamış olarıq.

Qrup işinin təşkili zamanı didaktika elminin prinsiplərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. "Didaktika inkişaf edən təhsil nəzəriyyəsidir və ön planda münasibətlər sistemi yəni, müəllim - tələbə, tələbə - təhsil materialı, tələbə - digər tələbələr durur. Bu əlaqələrin müxtəlifliyi öyrənmənin mahiyyətinə öz təsirini göstərir". Didaktika, təhsil prosesinin ən ümumi qanunlarını özündə əks etdirir və bu təlim formasında yəni qrup işinin təşkilində didaktik əsaslar kimi "necə öyrətməli" kimi öyrənmə predmeti sualına cavab tapmaq əsas meyara çevrilir. Məlumdur ki, ümumtəhsil məktəblərinin X-XI siniflərinin şagirdlərində daha yüksək təlim nəticələrinə nail olmaq üçün onların tədris fəaliyyətinə cəlb etmək səviyyəsini yüksəltmək lazımdır. Bunun tətbiqi isə kooperativ, yəni əməkdaşlıq əsaslı təlim zamanı daha məqsədəuyğundur. Yalnız Kooperativ təlim zamanı şagirdlər birgə fəaliyyət göstərdikləri digər şagirdlərlə eyni vaxtda öz məqsədlərinə çata bilərlər. Kooperativ əsaslı öyrənmə təlim tapşırığının elə təşkilini tələb edir ki, şagirdlər dərsin məqsədinə özünün və kiçik qruplardakı yoldaşlarının səyləri nəticəsində nail olsunlar [2, 495].

Qruplarla iş üsulu zamanı onun didaktik prinsiplərinin əvvəlcədən müəyyənləşdirilməsi mühümdür. Belə ki, dərsi necə planlaşdırmalı? bu üsulun tətbiqində məqsəd nədən ibarətdir? şagirdlərə aşılanmalı olan dəyərlər nələrdir? bunun uşaq üçün vaciblik dərəcəsi nədir? kimi sualların cavablandırılması didaktik əsasların müəyyənləşdirilməsinə yardım etmiş olur. Bu üsulun tətbiqi zamanı qrup işində şagirdlərim

fəaliyyətinin qiymətləndirilməsi meyarlarına daxildir:

1. Şagird tapşırığın məqsədləri üzərində diqqətini cəmləşdirirmi?

2. O, qrupun digər üzvləri ilə qarşılıqlı əlaqədə çalışırmı?

3. Başqalarına mane olmadan işləyirmi?

4. O, qrupun bütün üzvləri ilə nəzakətlə rəftar edirmi?

5. Şagird tapşırığın yerinə yetirilməsinə nə kimi töhfə verir?

6. Qrup halında işin yaxşılaşdırılması yollarını tapmağa kömək edirmi? [2, 514]

Təlim prosesində qrup işinin təşkili psixoloji-pedaqoji xüsusiyyətləri baxımından olduqca mürəkkəbdir. Bu mürəkkəbliyi meydana çıxaran səbəb müxtəlif psixologiyaya malik şagirdlərin olmasıdır. Qrup işinin təşkili zamanı şagirdlər müxtəlif psixoloji situasiyalar yaşayırlar. Belə psixoloji situasiyalar 2 formada təzahür edə bilər:

1. Qrup daxilində və ya qruplar arasında;

2. Müəllimlə ünsiyyət zamanı.

Birinci hala qrup üzvləri arasında mövcud olan rəqabət, fərdi mövqeyin üstün tutulması, qrup liderlərinin seçimində ədalət prinsipinin gözlənilməməsi, müxtəlif xarakterli şagirdlərin eyni qrupda birləşməsini bir sözlə, şagirdin qrup daxilində və qruplar arasında ünsiyyətinin həcmini, məzmununu, intensivliyini, formasını, yoldaşları ilə ünsiyyətdən razılıq hissinin səviyyəsinin nəzərə alınmasını aid ediriksə, ikinci formaya müəllimin yaxşı oxuyan şagirdi diqqət mərkəzində saxlaması, zəif şagirddən yan keçməsi kimi mənfi situasiyalarla yanaşı, müəllimin şagirdlərin fəallıq dərəcəsini düzgün qiymətləndirməsi, qrupların ehtiyacı müqabilində onlara istiqamət verməsi kimi müsbət halları da aid edə bilərik.

Qrup işinin təşkili öz üzvlərinə qarşı tərbiyələndirici funksiyanı yerinə yetirir və onlardan müvafiq qaydalara riayət etməyi tələb edir. Məhz bu zaman böyüməkdə olan şəxsiyyətin formalaşmasında mühüm amil olan əməkdaşlıq qabiliyyəti öz toxumlarını səpir və şagird şəxsiyyətinin inkişafı üçün şərait və şərt rolunu oynayır. Nəticə etibarilə müəllimin tərbiyəvi tədbir kimi qrup işinin faydalarından istifadə etməsi daha məqsədəuyğun olur. Yüksək səviyyədə təşkil edilmiş qrup işi ictimai həmrəylik, ictimai rəyə hörmət, yoldaşlıq və dostluq, yüksək ideya inamı, humanizm və s. kimi yüksək əxlaqi hisslərin formalaşmasına geniş imkan yaradır. Bu işin təşkili zamanı şagirdlərdə qrup yoldaşlarına humanist münasibət formalaşır. Onlarda empatiya (başqa adamların psixi halətlərini başa düşmək və onların dərdinə şərik olmaq) yaranır.

Psixologiya elmindən məlum olan idrak prosesləri - duyğular, hafizə, təfəkkür, təxəyyül, nitq, qavrayış, diqqət qrup işinin təşkili zamanı məktəblilərdə öz təzahürünü göstərir. Qrup işi zamanı şagirdlərdə, xüsusilə X-XI sinif şagirdlərində diqqətin müəyyən mövzunun müzakirəsinə cəmlənməsi müəyyən çətinlik yarada bilər və bu işin uğurlu təşkili müəllimin pedaqoji takt qabiliyyətindən çox asılıdır. Görkəmli alim K.D. Uşinski çox doğru qeyd etmişdir: diqqət ruhumuzun elə yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq burdan keçir. Ona görə də Uşinski dərs zamanı şagirdləri həmin qapını açıq saxlamağa alışdırmağı məsləhət bilirdi. Qrup işinin təşkili zamanı qavrayış, təxəyyül kimi idrak prosesləri şagirdlərdə müşahidə qabiliyyətini formalaşdırırsa, təfəkkür isə yaradıcı istiqamətə yönəlib şagirdlərdə tədqiqatçılıq mövqeyini formalaşdırır. Həmçinin bu işin təşkili şagirdlərdə nitq qabiliyyətini inkişaf etdirib hafizəsindəki keçilmiş materialı qrup mövzusu ilə əlaqələndirməsinə müvafiq şərait yaradır.

Ümumiyyətlə, ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təşkili zamanı hər bir şagirdin fərdi və yaş xüsusiyyətlərinin nəzərə alınması tədris prosesinin uğurla yekunlaşdırılmasına zəmin yaratmış olar. Əks təqdirdə vaxtilə alman alimi V.A. Layın qeyd etdiyi kimi "psixologiyasız metodika çox kütlükdür, köhnəpərəstlikdir" nəticəsinə gəlmiş olarıq [3,41]. Məhz bu baxımdan qrup işinin təşkili zamanı müsbət psixoloji iqlimin yaradılması üçün davranış etalonun təşkil edilməsinin əhəmiyyəti olduqca böyükdür.

Qrup işinin təşkilinin fəlsəfəsini "birlikdə öyrənirik " şüarı ilə səciyyələndirmək məqsədəuyğun olardı. Belə ki, idrak nəzəriyyəsi olan qnoseologiyanın düşünən materiya yəni beynimizin məhsulu kimi dərk etmə prosesini öyrəndiyini və qrup işinin təşkilində də dərketmənin, biliyin tətbiq edilməsinin vacibliyini nəzərə alsaq, təlim prosesi ilə elmi idrakın bağlılığını ay-

dın şəkildə görə bilərik. Bu baxımdan qrup işinin təşkilinin fəlsəfi əsaslarını iki istiqamətdə tədqiq edə bilərik:

1. Müəllimin qrup üzvləri ilə münasibətinin fəlsəfi əsasları;

2. Qrupun daxilindəki münasibətin fəlsəfi əsasları.

Birinci istiqamətə müəllimin qrup üzvlərində iş üçün məsuliyyət borcu hissi yaratması, işin təşkili üçün vacib olan qaydalarla tanış etməsi, qrup üzvlərinin vəzifələrini düzgün bölməsi, işin yerinə yetirilməsi üçün vaxtın müəyyənləşdirilməsini daxil ediriksə, ikinci istiqamətə isə qrup daxili münasibətlərin yarış əsasında deyil, əməkdaşlıq prizmasında qurulmasını daxil edə bilərik.

Şagirdin idrakında müəllimin müəyyənedici təsiri qrup fəaliyyətinin istiqamətini də müəyyənləşdirmiş olur. Yəni, müəllim tədris prosesində təlimin qrup işi formasının mahiyyətinin nəyi isə birlikdə icra etmək yox, birlikdə dərk edib, öyrənməkdə olduğunu izah etməlidir. Təlim prosesində dərsin əməkdaşlıq şəklində təşkili müəllimin də qrup üzvlərinin də sinif otağındakı rolunu əsaslı sürətdə dəyişir və onların hər birinin üzərinə yeni məsuliyyət və vəzifə qoyaraq, təfəkkür orqanı olan beyinin fəaliyyətini aktivləşdirir.

Məlumdur ki, təlim prosesi qnoseologiya nəzəriyyəsinə əsaslanır və həmin təlimdə də şagirdlərin idrak fəaliyyəti dörd mərhələdən ibarətdir:

1. Yeni biliklərin verilməsi.

2. Yeni biliklərin başa düşülməsi.

3. Biliklərin praktikaya tətbiqi.

4. Biliklərin mənimsənilməsinə nəzarət [2, 115].

Təlim prosesinin təşkili formalarından biri olan qrup işinin təşkilində də bu mərhələlər özünü doğruldur. Belə ki, yeni biliklərin verilməsi mərhələsində qavrama, anlama kimi idraki proseslər əsas götürüldüyündən qrup işinin təşkili zamanı da bu nüanslar diqqətdə saxlanılmalıdır. İdrak fəaliyyətinin bu mərhələsində qrup üzvləri ilk olaraq fəaliyyətə cəlb olunacaq mövzunun məzmunu ilə tanış olmalıdır. Problemin qoyuluşu mərhələsində lövhədən asılmış şəkilin müəllimin sözləri ilə müşayiəti qrup üzvləri üçün üçün yeni biliklərin qavranılması və anlaşılmasına şərait yaratmış olur. İdrakın mühüm nailiyyətlərinin insanın yeni bilik əldə edilməsi prosesində fəal iştirakı ilə əldə olunduğundan, fəlsəfi təhlilə də məhz o cəlb olunur.

Psixoloqlar sübut ediblər ki, yaxşı anlaşılan, başa düşülən şey çox asan mənimsənilir və yadda saxlanılır [2, 117].Qrup işinin fəaliyyətində də yeni əldə edilmiş biliyin başa düşülməsi kollektiv işin keyfiyyətini müəyyən edən amildir. Belə ki, yeni biliyin başa düşülməsi, şagirdlərin yeni biliyi əvvəl qazandıqları məlumatlarla əlaqələndirməsi mənimsəməni asanlaşdırır. Bu prosesdə isə analiz, sintez və müqayisə öyrənilmiş materialla yeni material arasında əlaqə yaratmağa imkan verdiyi üçün mənimsəmə prosesinin həlledici amili olan anlamanı tam və düşünülmüş edir.

“Qrupda fəal təfəkkür fəaliyyəti əsasında hər bir şagirdin nəinki yeni materialı dərk edib mənimsəməsinə, həm də müxtəlif intellektual bacarıqları formalaşdıran bu fəaliyyətin həyata keçirilməsi üçün şəraitin yaradılmasına çalışmaq lazımdır”. Məhz bu baxımdan mücərrəddən konkretə keçid mərhələsi olan biliklərin praktikaya tətbiqi qrup təlimində daha çox nəzərə çarpır. Belə ki, qrup üzvləri öyrəndikləri materialı müəllimin verdiyi müxtəlif tapşırıq və çalışmalar əsasında tətbiq edərək, elmi əhəmiyyətli bacarıq və vərdişlərə yiyələnmiş olurlar.

Son olaraq qeyd edək ki, ümumtəhsil məktəblərinin X-XI siniflərində qruplarla işin psixoloji, didaktik və fəlsəfi cəhətdən düzgün və düşünülmüş şəkildə təşkili şagirdlərin Azərbaycan tarixini yaradıcı səviyyədə mənimsəməsinə imkan yaratmalı və onlara daimi emosional təsirlə müşayiət olunmalıdır.

**Problemin aktuallığı və praktik əhəmiyyəti:** Məqalədə irəli sürülən təkliflər və nəticələr tədris prosesində şagirdlər üçün inkişaf mühitinin tənzimlənməsinə şərait yaradacaqdır.

**Problemin elmi yeniliyi:** Ümumtəhsil məktəblərində qruplarla işin təşkilinin didaktik , psixoloji və fəlsəfi yanaşmaları şagirdlərin yaradıcı təfəkkürünü inkişafa cəlb edib özünümüşahidə qabiliyyətinin formalaşmasına gətirib çıxarır.

## ƏDƏBİYYAT

1. Didaktik konsepsiyanın tarixi-nəzəri əsasları // Azərbaycan məktəbi, 2015, № 4
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011.
3. Feyziyev Ə., İbrahimov F., Bədiyev S. Didaktika. Bakı: Mütərcim, 2011.
4. İbrahimov F. Təlimin mükəmməl sistemi“, Bakı, 2000.
5. Mehrabov A., Abbasov Ə., Zeynalov Z, Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
6. Məlikov R, Nəcəfli T Tarixin interaktiv təlimi. Bakı, 2002.
7. Nəsirov X. Şagirdlərin təlim-tərbiyəsində tarix müəlliminin rolu. Bakı, 2012.
8. Qəhrəmanov. A. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçilari üçün təlim materialı. Bakı, 2012.
9. Seyidov S. və Həmzəyev M. Psixologiya. Bakı, 2007.
10. Пешкова В.Е. Педагогика. Часть 4. Теория обучения: Дидактика. Майкоп, 2010.

**В. Рустамова**

## ДИДАКТИЧЕСКИЕ, ПСИХОЛОГИЧЕСКИЕ И ФИЛОСОФСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ ГРУППОВЫХ РАБОТ ПРИ ПРЕПОДАВАНИИ КУРСА ИСТОРИИ АЗЕРБАЙДЖАНА В 10-11 КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***РЕЗЮМЕ***

В статье были показаны дидактические, психологические и философские основы критерий обучения. А так же подчеркиваются пункты оценок действий учеников. В статье также уточняется гносеологические направления действий групп как фактор определения.

**V. Rustamova**

## DIDACTIC, PSYCHOLOGICAL AND PHILOSOPHICAL BASES OF ORGANIZATION OF WORK WITH GROUPS IN THE STUDY OF HISTORICAL COURSES OF THE 10-11 GRADES OF GENERAL SCHOOLS

***SUMMARY***

In the article is shown didactic, psychological and philosophical bases as a criterion of teaching. Also emphasize points of marking of students` actions. The article also clarifies the epistemological directions of group activities as a factor of definition.

**Redaksiyaya daxil olub:** 18.01.2018